**Ermәni vandalları tөrәtdiklәri әmәllәr üçün heç bir mәsuliyyәt daşımayaraq Azәrbaycanın yaşayış mәntәqәlәrini, o cümlәdәn infrastruktur obyektlәrini atәşә tuturlar. Onlar odla oynamaqdan çәkinmәyәrәk dәfәlәrlә Mingәçevir İstilik Elektrik Stansiyasını, neft vә qaz kәmәrlәrimizi hәdәfә alıblar.**



# Azәrbaycanın neft vә qaz kәmәrlәrini hәdәfә almaq Ermәnistanı beynәlxalq tәzyiqә mәruz qoya bilәr

## İşğalçılar hәtta hәr an kömәk istәdiklәri Rusiyaya neft daşıyan boru xәttini dә hәdәfә alırlar

Ermәnilәr atdıqları raketlәrdәn birini dә Xızı rayonuna tuşlamışdılar, baxmayaraq ki, bura cәbhәdәn xeyli uzaqda yerlәşәn әrazidir.

Müәyyәnlәşdirilmişdir ki, raket 300 kilometr radiusda hәdәflәri vurmaq imkanına, 250-280 kilometr mәsafәdә uçuş qabiliyyәtinә malikdir. O, Xızı rayonunun Sitalçay qәsәbәsi әrazisindә havada zәrәrsizlәşdirilmiş vә şumlanmış әkin sahәsinә düşәrәk üç hissәyә bölünmüşdür. Xoşbәxtlikdәn heç kim xәsarәt almamışdır.

Lakin mәsәlәnin digәr vacib bir tәrәfi odur ki, buradan cәmi 250 metr aralıda Azәrbaycan neftini Rusiyaya, Qara dәniz sahilinә daşıyan Şimal İxrac Boru Kәmәri (ŞİBK) - Bakı-Novorossiysk marşrutu keçir.

Xatırladaq ki, Azәrbaycan Bakı-Novorossiysk xәtti ilә 1997-ci ildәn neft nәql edir. Uzaq mәsafә qәt edәn kәmәrin 231 kilometri Azәrbaycanın әrazisindәn keçir. ŞİBK-in sutkalıq ötürücülük qabiliyyәti 105 min bareldir.

Әvvәlki illәrdә kәmәrә BP şirkәti әmәliyyatçılıq etmiş, sonra operatorluq SOCAR-a (Azәrbaycan Respublikası Dövlәt Neft Şirkәti) keçmişdir. SOCAR bu kәmәrә dәnizdәki vә qurudakı yataqlardan özünün çıxardığı, elәcә dә birgә müәssisәlәri ilә hasil etdiyi nefti vurur.

Energetika Nazirliyinin mәlumatına görә, 2019-cu ildә Bakı-Novorossiysk kәmәri ilә 824,4 min ton neft nәql edilib.

ŞİBK dә ermәni vandallarının hәdәfindәdir. Onlar neft vә qaz kәmәrlәrinә atәş açmaqla tәkcә Azәrbaycanı tәhlükә qarşısında qoymur, eyni zamanda, hәmin layihәlәrdәki tәrәfdaşların hamısına zәrbә endirmәyә cәhd edirlәr. Ermәnilәr bu vә digәr layihәlәrә vәsait yönәltmiş sәhmdarlar, istehsalçı, istehlakçı vә tranzit ölkәlәr qarşısında öz mәnfur niyyәtlәrinә, cinayәtkar әmәllәrinә görә cavabdehlik daşıdıqlarını birmәnalı olaraq dәrk etmәlidirlәr.

Tәsadüfi deyil ki, Prezident İlham Әliyevin Rusiyanın "İnterfaks" agentliyinә müsahibәsindә dövlәtimizin başçısına verilәn suallardan biri ermәnilәrin bu ağılsız hәrәkәtinin Azәrbaycan neftinin vә qazının dünya bazarına çatdırılması üçün hansı risklәri yarada bilәcәyi ilә bağlı olmuşdur.

Prezident demişdir: "Әgәr onlar vәd etdiklәrini reallaşdıra bilsәlәr, konkret olaraq, Sәngәçal terminalını vә ya bizim neft vә qaz kәmәrlәrimizi bombalaya bilsәlәr, bu, әlbәttә, risklәrlә bağlı olacaq. İndiki halda düşünürәm ki, onları qınayacaqlar, çünki bu neft vә qaz әsasәn avropalı istehlakçılara lazımdır. Sirr deyil ki, Azәrbaycandan çәkilәn qaz kәmәri müәyyәn dәrәcәdә, çox yox, müәyyәn dәrәcәdә bәzi Avropa ölkәlәrinin enerji tәhlükәsizliyinә şәrait yaradır vә yaradacaq".

Bu gün Avropa İttifaqının üzvü olan bir sıra ölkәlәr özlәrinin ehtiyaclarının tәxminәn 40-50 faizini Azәrbaycan nefti hesabına tәmin edirlәr. Odur ki, bu neft-qaz kәmәrlәri ilә bağlı bir hadisә baş versә, Ermәnistan ciddi beynәlxalq tәzyiqlә üzlәşәcәk.

Bununla belә, vandallar bәd әmәllәrini dayandırmırlar. Prezident hәmin sualı cavablandırarkәn daha bir mühüm mәqama toxunmuşdur: "Onlar Bakı-Novorossiysk neft kәmәrini bombalamağa cәhd göstәrmişdilәr. Bu neft kәmәri Azәrbaycan ilә Rusiyanı bağlayır. Hәmin Rusiyanı ki, Ermәnistan ondan hәmişә hansısa xüsusi münasibәtlәr tәlәb edir, әvәzindә heç nә vermәdәn. Heç nә. Әsla. İstәr tarixi baxımdan, istәr beynәlxalq arenada dәstәk mәnasında. Әlbәttә, indi Sorosun komandasından başqa bir әmәl gözlәmәk çәtindir. Buna görә dә Mingәçeviri, elektrik stansiyasını bombalamağın mәqsәdi Azәrbaycanın enerji sistemini dağıtmaqdır. Bu, әlbәttә, müәyyәn dәrәcәdә tәsir göstәrәr, lakin biz artıq şaxәlәnmiş enerji tәchizatı şәbәkәsi, yeni elektrik stansiyalarını yaratmışıq. Ona görә dә bu, mәhz ermәni tәrәfin yırtıcı mahiyyәtini göstәrir".

Prezidentin belә әsaslı vә kәskin sözlәrindәn sonra şәrhә әlbәttә, heç bir ehtiyac qalmır. Budur Ermәnistanın hәrbi-siyasi rәhbәrliyinin siması, ermәni işğalçıların iç üzü!

*Flora SADIQLI,*
*"Azәrbaycan"*

Azәrbaycan.- 2020.-31oktyabr.- S.7.